# Oktyabr ayı üçün tarixi günlər

1 Oktyabr - Beynəlxalq Ahıllar günü

1 Oktyabr - Prokurorluq işçiləri günü

5 Oktyabr - Müəllim günü

9 Oktyabr - Poçt İşçiləri Günü

18 Oktyabr - Müstəqillik günü

24 Oktyabr - BMT günü

**Müəllim günü**

Ümumdünya Müəllimlər Günü hər il oktyabrın 5-də müəllimlərin əməyini qeyd etmək



üçün keçirilən beynəlxalq gündür. Bu, tarixi gün kimi 1994-cü ildən qeyd olunur. Bu gün Beynəlxalq Əmək Təşkilatı (BƏT) və Birləşmiş Millətlər Təşkilatının Təhsil, Elm və Mədəniyyət Təşkilatı (UNESCO) tərəfindən tövsiyələrin imzalanmasının xatirəsinə həsr olunmuşdur.

**18 Oktyabr - Müstəqilliyin Bərpası Günü**

Əvvəllər bu gün Milli Müstəqillik Günü adlanmışdır. XX əsrin sonlarında SSRİ-nin dağılması ilə yaranan tarixi şərait nəticəsində Azərbaycan dövləti öz müstəqilliyini ikinci dəfə bərpa etmişdir. 1991-ci il oktyabrın 8-də Azərbaycan Ali Sovetinin işə başlayan növbədənkənar sessiyası dörd gün ərzində müzakirələr aparmışdır. “Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası haqqında” Azərbaycan Ali Sovetinin 1991-ci il 30 avqust tarixli Bəyənnaməsini əsas götürərək, 1991-ci il oktyabrın 18-də Ali Sovetin Sessiyasında tarixi sənəd olan “Azərbaycan Respublikasının Dövlət müstəqilliyi haqqında” Konstitusiya Aktı qəbul olunmuşdur.

Konstitusiya Aktının 2-ci maddəsində deyilir: “Azərbaycan Respublikası 1918-ci il mayın 28-dən 1920-ci il aprelin 28-dək mövcud olmuş Azərbaycan Respublikasının varisidir”.

# Vətəni Vətən edən oğullar

Vətənpərvərlik bizim milli mirasımızdır. Vətənpərvərlik xalqımıza xas olan ən gözəl xüsusiyyətdir. Məhz buna görə də tariximizin özül səhifəsi onun qəhrəmanlıq salnaməsidir. Xətailər, Babəklər, Mehdilər, Həzilər, Əliflər, Poladlar, Mübarizlər və s. - onlar xalqımızın əfsanəvi igidləridir. Doğulduğu məkandan başlanan Vətən onlar üçün canlarından yaxın, əziz olmuş, göz qırpmadan şəhadət yolunu seçmişlər.




2020-ci il 27 sentyabrda başlanan 44 günlük Vətən müharibəsində yüzlərlə igid oğullarımız tarixi yenidən yazdılar, Zəfər tarixini yenilədərək adlarını da tarixin qan yaddaşına həkk etdilər. Onlar arasında qədim Qəbələnin də sayseçmə oğulları var. Onlar həm müharibə vaxtı, həm də terror hadisələrində şəhid olmuşlar. Şəhid adının isə bir mənası var - igidlik! Və bu şəhid adı ta körpəsindən yaşlısınadək hər bir insana məlum...

Sentyabr - oktyabr aylarında həyata göz açan igidlərimiz: Elvin Abdurahmanov (01.10.1996), Taleh Şirinov (21.10.1996), Xeyirbəy Səfərçinov (05.10.1993), İqbal Babayev (10.09.1995), Fariz Rəhimov (20.09.2001), Aqşin Ənvərli (10.10.1994), Mikayıllı Mikayıl (24.09.1993), Elşən Dəmirli (15.10.1998). Onlar igidliklə döyüşərək şəhadət yolunu seçən oğullarımızdır.

Qəhrəmanlıq saatla, ayla, illə ölçülməz. Canını Vətən yolunda qurban verən hər kəs əsil vətənpərvər, əsil qəhrəman sayılar. Qəbələmizin onlarca belə vətənpərvəri 44 günlük müharibədə və antiterror əməliyyatlarında iştirak etmiş və tarixin qan yaddaşında onların adları həkk olunub. Sentyabr - oktyabr aylarında şəhadətə qovuşanları bir daha oxucularımızın diqqətinə çatdırırıq. Onlar iyul - Tovuz hadisələrində şəhid olan, Azərbaycanın Milli Qəhrəmanı, general - mayor Polad Həşimovun davamçılarıdır. Onlardan 3 nəfəri sentyabr, 18 nəfəri isə oktyabr ayında şəhadətə qovuşmuşlar. Qurbanov İsmayıl (28.09.2020), Hakim Baxışov (28.09.2020), Elşən Dəmirli (29.09.2020), Mikayıllı Mikayıl (01.10.2020), Elvin Abdurahmanov (03.10.2020), Ümman Əmiraslanov (03.10.2020), İsmayıl Kərimov (06.10.2020), Vasif Süleymanov (06.10.2020), Tural Cəlilov (07.10.2020), Taleh Şirinov (08.10.2020), İmaməddin Yusifov (10.10.2020), Elməddin Mustafayev (11.10.2020), Əfqan Abdurahmanov (11.10.2020), Sərvan Eyyubov (12.10.2020), Natiq İsmayılov (18.10.2020), Rüstəm Atakişiyev (23.10.2020), Coşqun Bayramov (24.01.2020), Xeyirbəy Səfərçinov (24.10.2020), İqbal Babayev (28.10.2020), Aydın Bayramov (28.10.2020), Tapdıq Ağayev (30.10.2020).

Onlar Vətən uğrunda döyüşmüş, xalqımızın azadlığı, torpaqlarımızın bütövlüyü uğrunda şəhid olmuşlar. Nə qədər ki, tarix var, onlar adları, əməlləri ilə nəsilbənəsil yaddaşlarda, ürəklərdə yaşayacaqlar. Onlar xalqın and yeri, vüqarı, qüruru, dünyanın hər bir ölkəsində xalqın tarixinin, şəxsiyyət tanıtmalarının özəl “sertifikatıdır” !

**BİBİXANIM**

# Torpaq sizi səsləyir

**Fikrimizcə**

Hər bir qələm əhli yazdığı hər cümləyə, hər sözə, danışdığı - ağzından çıxan hər kəlməyə diqqət etməlidir. Sözün gücü jurnalistin gücünü, dəyəri müəllifin hörmət və ehtiramını, yazarkən mövqeyi yazarın dünyagörüşünü və həyatabaxışını, yazdığı hər kəlmədə diqqətli oxucu tərəfindən sezilən məram və məqsədini ifadə etməsini bilməlidir. Mənim fikrimcə, jurnalistin qələmindən çıxan sözə xüsusilə diqqət yetirilməlidir. Burada mənəvi dəyər və vətənpərvərlik, insanlığın gücü, vicdani yanaşma, dünənə unutqanlıq, sabaha diqqət mütləq və mütləq düşünülməlidir. Yazılan yazının dili, danışılan sözün səsi - sədası xalqın bu gününü və sabahını hansısa bir çaxnaşmaya, qalmaqala sürükləməməlidir. Əsil jurnalist tarixi və gündəlik faktları təkzib etmədən, şişirtmədən, “düzü düz, əyrini əyri” yazmalı, daxili çəkişmələr yaratmamağa, düşmənin fikir və düşüncələrinə də “rəvac” verməməlidir. Bir fikir irəli sürürsə, aktual bir mövzuya toxunursa jurnalist bütün təfərrüatlara diqqətli yanaşmalı, emosionallıqdan, pafosdan uzaq olmalıdır. Bir sözlə, peşəkarlığı varsa həyati əhəmiyyətli mövzuya toxunmalıdır, haqqın səsini düzgün sədalandırmalıdır.

**Azərbaycanda qaçqınlıq**

Azərbaycan -Ermənistan münaqişəsi səbəbindən yüz minlərlə azərbaycanlı Ermənistanı və onun işğal etdiyi Azərbaycan ərazilərini tərk edərək ölkənin digər ərazilərində məskunlaşmaq məcburiyyətində qalır. Rəsmi məlumata görə Azərbaycanda bu statusa malik bir milyon (2009 - cu ilin məlumatına əsasən) insan yaşayır. Onların bir qismi (200 min nəfər) Ermənistanı tərk etməyə məcbur olan etnik azərbaycanlılar, o cümlədən 500 min nəfərə yaxın DQMV və onun ətrafında yerləşən 7 rayondan (Kəlbəcər, Zəngilan, Ağdam, Laçın, Fizuli, Qubadlı və Cəbrayıl) məcburi köçkün düşmüş insanlardır. Ermənistan - Azərbaycan arasında Dağlıq Qarabağ üzərində etnik münaqişə zamanı azərbaycan əhalisi arasında köçkünlərin ümumi sayı 750 min nəfərə çatmışdır.




**Məcburi köçkünlərə verilən imtiyazlar haqqında**

Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında Azərbaycan Respublikasının qanununda ayrı - ayrı maddələr vardır.

Məcburi köçkünlər kimdir? - Xarici hərbi təcavüz, müəyyən ərazilərin işğalı və ya mütəmadi atəş altında saxlanması nəticəsində Azərbaycan Respublikası ərazisində daimi yaşayış yerlərini tərk etməyə məcbur olan şəxslər məcburi köçkünlərdir.

Qanunda sosial müdafiə tədbirləri nəzərdə tutulmuşdur. Bu tədbirlər isə məcburi köçkünlərin əvvəlki yaşayış yerlərinə qayıtması üçün şəraitin yarandığı vaxtdan 3 il müddətində, məcburi köçkünlərə bərabər tutulan şəxslərin isə əvvəlki yaşayış yerlərinə qayıtması üçün şəraitin yarandığı və ya daimi məskunlaşdığı vaxtadək qüvvədədir.

Məcburi köçkünlərə ölkəmizdə güclü imtiyazlar verilmişdir. Onların sosial müdafiəsi - müvəqqəti yaşayış sahəsi ilə təmin edilməsi, məşğulluğun təmin edilməsi, sosial təminat, tibbi təminat, təhsil hüquqlarının təmin edilməsi, nəqliyyat və mənzil - kommunal və digər güzəştlər və s. Həmçinin nəzərə çatdırmaq istəyirəm ki, bu maddələr içində belə bir cümlə də vardır: “Məcburi köçkünlərin müstəqil olaraq müvəqqəti məskunlaşmasına o halda yol verilə bilər ki, bu digər şəxslərin hüquqlarını və qanuni maraqlarını pozmasın !

Məcburi köçkünlərə torpaq sahəsi ayrılması, kreditlər verilməsi və texniki yardımlar göstərilməsi, məşğulluğunun təmin edilməsi, sosial təminatı, maddi yardımlar, tibbi təminatı, təhsil hüquqlarının təmin edilməsi, nəqliyyat xidməti, mənzil və kommunal xidməti güzəştləri, dövlət rüsumu ödəməkdə güzəştlər və s. onların lazımi yaşayış tərzinin yaranması və onların müdafiəsi üçün əsas amillərdir. Bu imtiyazlar fiziki baxımdan onların yaşayış tərzinin çox zaman yerli əhalidən daha yaxşı olmasının bariz nümunəsidir, faktiki göstəricisidir.

Bu qanun 21 may 1999-cu ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev tərəfindən verilmişdir.

**Mənəvi ağırlıq**

Hər kəsin Vətəni doğulduğu, boya-başa çatdığı, ələlxüsus ata-baba yurdundan başlayır. Hər ailənin öz isti ocağı, bu ocağın şöləndiyi bir evi olur. Bu evdə doğmaları - əzizləri ilə birgə yaşayır. Keçirdiyi həyat tərzi öz çətinlikləri ilə daha şirin və maraqlı olur, bu isə əzizlərin bir toplum şəklində yaşaması ilə əlaqədardır. Hansısa yad əl bu ocağa uzananda evin istisi “qaçır”. Mənfur niyyətli, faşist əqidəli insanlarla qonşu yaşanılırsa, bu ocaq sönmək təhlükəsində olur. Bax, Ermənistan kimi qonşu respublikanın vandalları gözəl Qarabağımıza göz dikdikləri kimi...

1988-ci ildən üzə çıxdı onların xəbis niyyətləri. Əslində ta beşikdə olan körpələrinə belə azərbaycanlıların onların dosu olmadığını təbliğ edən bir qonşu dövlət olmuşdur Ermənistan və ermənilər. Bu, tarixin qan yaddaşında əbədi iz salan müharibə və toqquşmalardan; faciələrdən daha aydın şəkildə hər kəsə məlum olur.

1988-ci ildən bəri baş verən tarixi hadisələrin canlı şahidiyəm. Xalqımıza qarşı törədilən qanlı hadisələr, faciələr mənim də qan yaddaşımda. Qanı “donduran” amansız qətllər, faciəvi hadisələr haqqında işlədiyim mətbu orqanında qəzetçi dili ilə yazsam da, ən ağırları yaddaşımın dərinliyində iz salmışdır. Böyük qardaşım Asəf İsayev hərbçi idi və onun şahidi olduğu faciələrin qan izləri haqqındakı söhbətləri indi də “beynimdə dolanır”, göz önümdə canlanır. O illərdə Qəbələmizə müxtəlif bölgələrdən məcburi köçkün adı almış insanlar gəlir, məskunlaşırdı. Biz mətbuat işçiləri onlarla tez - tez görüşürdük. Onların əksəriyyəti tək canını götürüb övladlarını, yaşlı nəsli, qadınları “güllə-barandan” qaçıranlar idi... Hərtərəfli, imkan daxilində rayon camaatı onlara kömək edirdi... Ən adi məişət əşyasına belə ehtiyacı olan insanlar var idi onların arasında. Mən Şuşa, Laçın, Kəlbəcər, Xocalı və s. bölgələrdən gələn ailələrlə tez - tez görüşürdüm; onların acınacaqlı günlərindən, həyəcan dolu, qorxu hissi ilə çulğalanmış həyat hadisələrini dinləyir, təskinlik verirdim... O illərin acılı günlərindən çox danışmaq olar... Ən ağrılısı o idi ki, köçkün, qaçqın adının ağırlığı onların simasına, baxışlarına çökmüşdü. Onlar maddi sıxıntılardan da çox mənəvi sıxıntılara məruz qalmışdılar...

**Adiləşmə**

İllər bir - birini əvəz etdikcə bu insanlar həm fiziki, həm maddi, həm məəvi çətinliklərə öyrəşir, yaşamağın yolunu tapıb yaşayırdılar. Hər ilin özünəməxsus planlarını, qayıdıb öz doğma ocaqlarında yaşayacaqları gün və ayları, illəri gözləyir, həyati problemlərini planlaşdırırdılar... Ancaq dünyasını həsrətli şəkildə dəyişənlər dünyadan köçür, məskunlaşdıqları məkanlarda “qarabağlı” balalar dünyaya göz açırdı... Və beləcə 30 ilə yaxın bir vaxt keçdi... Bu illər ərzində atəşkəs olmasına rəğmən yüzlərlə azərbaycanlılar şəhid oldular... , sağlamlığını itirdilər...

Həyat isə davam edirdi. Məskunlaşan insanlar isə bu sözün ağırlığına da, çətinliklərə də öyrəşir və həyatın “axarına” düşüb yaşayırdılar. Dövlətin imtiyazlarından, öz imkanlarından da istifadə edə - edə həyatı davam etdirirdilər. Hər şey - nə qədər ağır səslənsə də, köçkün adı da, vətəndə “vətənsizliyin” acısı da adiləşirdi... Nə qədər arzular dəyişsə də yaşam davam etdi...

**Zəfər-bloklanmış arzuların gerçəklik yolu**

2020-ci ilin 27 sentyabrında başlanan 44 günlük Vətən müharibəsi Zəfərlə başa çatdı. Yaddaşlardan məğlubiyyət sözü silindi və qalib ölkə adı qazandıq. Azərbaycan ordusunun yenilməzliyi, xalqımızın igid oğullarının qətiyyəti ilə qələbə qazandıq, torpaqlarımız demək olar ki, yağı tapdağından azad oldu. 100 - lərlə igid şəhadətə qovuşdu, 100 - lərlə poladbiləkli oğullarımız şikəst qaldı, psixoloji zərbələr alaraq sağlamlıqlarını itirdilər. O oğullar təkcə qarabağlılar deyildi... Ölkəmi-

(Ardı 8-ci səhifədə).